# Maqsud Şeyxzadənin 110 illik yubileyi qeyd edilib

Dünən "Kaspi" qəzeti, "Kaspi" Təhsil şirkəti, Azərbaycan Mətbuat Şurası və Özbəkistandakı Heydər Əliyev adına Mədəniyyət Mərkəzinin təşkilatçılığı ilə şair, dramaturq Maqsud Şeyxzadənin 110 illik yubileyinə həsr olunan tədbir keçirilib. SİA-nın xəbərinə görə, tədbirdə "Kaspi" Təhsil Şirkətinin təsisçisi, filologiya elmləri doktoru Sona Vəliyeva, Mətbuat Şurasının sədri, millət vəkili Əflatun Amaşov, media kapitanları,






jurnalistlər, QHT rəh bərləri və digərləri iş tirak ediblər.

Mətbuat Şurasının sədri, millət vəkili Əf latun Amaşov çıxış edərək bildirib ki Maqsud Şeyxzadə Özbəkistan ədəbiyya tının klassikidir: "O şair, yazıçı, dilçi alim ədəbiyyatşünas ol maqla yanaşı, həm də dramaturqdur. Onun əsərləri bu gün teatrlarda səhnələrə qoyulur". Ə.Amaşov söyləyib ki M.Şeyxzadənin azərbaycanlı olması bizi ona daha da yaxınlaşdırır: "İbtidai məktəbi Ağdaş da bitirən Maqsud daha sonra Bakı Pedaqoji Məktəbində təhsilini davam etdirib. Təhsilin bitirəndən sonra o, iki il Dağıstana göndərilir. Dağıstanda baş verən hadisələrdə iştirak et diyi üçün Maqsud Özbəkistana sürgün edilir. 1967-ci ildə dünyasını dəyişən Maqsud Şeyx zadə qısa ömrünü Özbəkistan ədəbiyyatının inkişafına həsr edir".

Filmin təqdimatından sonra çıxış edən "Kaspi" Təhsil Şirkətinin təsisçisi, filologiya elm ləri doktoru Sona Vəliyeva qonaqları salamlayaraq Özbəkistandakı Heydər Əliyev adına Mədəniyyət Mərkəzin fəaliyyətindən söz açıb: "Özbəkistanda böyük Tərcümə Mərkəzi ya radılıb. Mərkəzin fəaliyyəti nəticəsində Azərbaycan əsərləri özbək dilinə, özbək əsərlər Azərbaycan dilində tərcümə edilərək tanıdılır".

Özbək ziyalılarının Azərbaycan ədəbiyyatına münasibətindən söz açan S.Vəliyeva söy ləyib ki, müsbət münasibətin yaranması Maqsud Şeyxzadə kimi şəxslərin fəaliyyəti nəticə sində olub: "Maqsud Şeyxzadə bu gün tədqiq olunmağa, bütün dillərə tərcümə olunmağa la yiq bir ziyalıdır. Belə şairlər bölünmür, onlara bizim, sizin deyilmir. Maqsud Şeyxzadə çox böyük keyfiyyətlərə malik idi. O, Özbəkistandan aldığı müsbət enerji sayəsində mühüm əsərlər ortaya qoyub. Bu gün biz özbək ziyalılarına Maqsud Şeyxzadəyə Özbəkistanda ev şəraiti yaratdıqlarına görə təşəkkür edirik. Məhz bunun nəticəsində Maqsud Şeyxzadə sə mərəli iş ortaya qoya bilib".

Tədbirin davamında çıxış edən Özbəkistandakı Heydər Əliyev adına Mədəniyyət Mər kəzinin direktoru Samir Abbasov deyib ki, mərkəz Özbəkistanda fəaliyyətini Azərbaycan mədəniyyətini təbliğinə həsr edib: "Bu gün Şeyxzadənin ruhu çox şaddır. Çünki onun 110 yaşını Vətəni Azərbaycanda qeyd edirik".

Qardaş Özbəkistanın tarixində azərbaycanlılar böyük rol oynadığını dilə gətirən qurum rəhbəri bildirib ki, bu gün Özbəkistan xalqı onların fəaliyyətlərini yüksək qiymətləndirir "Şeyxzadənin bir çox əsərləri özbək ədəbiyyatşünaslığında tədqiq edilir, öyrənilir. Azərbay canda doğulan, lakin repressiya qurbanı olaraq Özbəkistana gələn Şeyxzadə çox böyük iş lər ortaya qoyub. O Tərcümə Mərkəzi yaradaraq bu istiqamətdə xidmətləri ilə tarixə düşüb Vətən həsrəti ilə yaşayan Şeyxzadə öz şeirlərində bunu əks etdirib. Azərbaycana bu tədbi rin həyata keçirilməsinə görə təşəkkür edirəm. Son iki ildə "Kaspi" qəzeti, "Kaspi" Təhsi Şirkətinin dəstəyi ilə iki kitab çap etmişik".

Tədbirin davamında çıxış edənlər Maqsud Şeyxzadənin fəaliyyətini yüksək qiymətlən dirərək, onu həm Azərbaycanın, həm də Özbəkistanın iftixarı adlandırıblar. Sonda "Kaspi Təhsil Şirkətinin təsisçisi, filologiya elmləri doktoru Sona Vəliyeva və Mətbuat Şurasının sədri, millət vəkili Əflatun Amaşov Özbəkistandan gələn qonaqları təltif ediblər.